Borc

ELÇİN

Müxbirlər, və oxucular mənə sual verəndə ki, hansı yazıçıları yüksək qiymətləndirirsiz, gənciyinizdə kim sizə təsir edib, kimi çox mütaliə etmisiniz, mən Amerika nasiri Erskin Kolduellin də adını çəkirəm və çox zaman da görürəm ki, onu tanımırlar, heç adını da eşitməyiblər, ya da xatırlamırlar.

Kolduell müasir dünya ədəbiyyatının o böyük yazıçılarından biridir ki, oxucular arasında da, ədəbi ictimaiyyətdə də, hətta tənqid və ədəbiyyatşünaslıqda da özünə layiq olan qiyməti almayıb, halbuki o, XX əsr zəngin Amerika ədəbiyyatının, mənim fikrimcə, aparıcı nümayəndələrindəndir. Düzdür, Folkner onu Amerikanın (özünü də daxil etməklə!) beş böyük yazıçısından biri hesab edir, ancaq Folknerin bu qiyməti daha artıq dərəcədə istisnadır, nəinki hamıya məlum olan bir həqiqət.

Mən bu yaxınlarda oxudum ki, Kolduellin əsərlərinin tirajı 80 milyona çatıb, bu əsərlər 40-dan çox dilə tərcümə olunub və əlbəttə, bunlar əylənçəli yox, ciddi ədəbiyyat üçün böyük rəqəmlərdir, amma bütün bunlarla bərabər, Kolduell öz müasirləri və həmkarları olan elə həmin Folkner, yaxud Heminquey, yaxud da Dos-Passos və Steynbek qədər məşhur və populyar deyil.

Nə üçün belədir? Bu barədə fikirləşəndə mən bunun səbəblərindən birini də onda görürəm ki, Kolduell, bəlkə də, daha artıq elitar yazıçıdır və Folkner nəsri nə qədər dərin və ağır çəkilidirsə, Heminquey nə qədər işqili və oynaqdırsa, Dos-Passos nə qədər eksperimentçi və forma axtarışlarındadırsa, Kolduell bir o qədər estetdir və onun, xüsusən həkayələrinin zərif psixologizmi daima həmin estetçiliyi ilə bir yerdədir, həmahəngdir, amma belə bir Kolduell estetçiliyi heç vaxtla o demək deyil ki, bu yazıçı həyatın, güzəranın, hətta sosial problemlərin, ictimai və siyasi həyatın fövqündədir.

Kolduell psixologizmi (onun estetçiliyi ilə həmahəng psixologizm!) yaradıcılığının mücərrəd yox, sırf həyati təzahürüdür.

Müxbirlərdən birinin "- Bəzən tənqid sizi qəbul etmir. Sizcə, bunun səbəbi nədir?"- sualına Kolduellin cavabı da maraqlı və məncə, bu yazıçı üçün səciyyəvidir. Kolduell deyir: "- Çünki tənqidçilərin çoxu həyatdan uzaqdır!"

Mən Kolduelli 16-17 yaşlarımda oxumağa başlamışam, onun "Corciyalı oğlan" və "İyulda hadisə" povestlərini oxumuşdum, ancaq mənə çox təsir edən onun həkayələri olmuşdu. Kolduella qədər də mən bir çox yazıçıların, o cümlədən Çexov, O.Henri, Moyem, Ömər Seyfəddin, yaxud Leonid Andreyev, İvo Andriç – ilk fikrimə gələnlərin adını çəkirəm — kimi həkayə ustalarının yazdıqlarını oxumuşdum, ancaq Kolduelldən sonra mən, elə bil ki, bu janrı özüm üçün yenidən kəşf etdim.

Adını çəkdiyim o yazıçıların həkayələrinin əsasında yığcam, maraqlı, gözlənilməz süjetlər dayanırdı və həmin həkayələri həvəslə bir başqasına danışmaqda da çətin bir şey yoxdur. Kolduell üçün isə süjet heç vəchlə əsas deyildi, əsas – situasiya idi, psixoloji məqam idi. Kolduellin elə həkayələri var ki, onların süjetini söyləmək mümkün deyil, sadəcə olaraq ona görə ki, bu həkayələrdə həmin ənənəvi süjet yoxdur.

Sonralar, 1960-70-ci illərdə Kolduellin məşhur "Cenni" romanı, indi adlarını xatırlamadığım başqa əsərləri nəşr olundu, ancaq onların heç biri mənə onun həkayələri kimi maraqlı (və əhəmiyyətli!) görünmədi və doğrusunu deyim ki, mənim Kolduell həkayələrinə belə bir bağlılığım İlyas Əfəndiyev üçün də qəribə bir iş idi.

Yadıma gəlir, 1960-cı ilin iyul ayında biz Kislovodska getmişdik və mən universitetə daxil olmaq üçün avqustda keçiriləcək qəbul imtahanlarına hazırlaşırdım, cürbəcür dərsliklərlə, ədəbiyyatşünaslıq kitabları ilə bərabər, Erskin Kolduellin povest və həkayələr kitabını da özümlə Kislovodska aparmışdım.

İlyas Əfəndiyev dərsliklərin arasında o kitabı görüb:

– Sən bu Kolduelldə nə görmüsən?- dedi.

Və o zaman mən Kolduellin "Boboş otaq" (rusca "Pustaya komnata") həkayəsini, demək olar ki, cümləbəcümlə əzbərdən söylədim. Mat qalmış İlyas Əfəndiyev heç bir söz demədi, təkcə çiyinlərini çəkməklə təəccübünü, bəlkə də heyrətini (söhbət hər hansı bir şeirdən, hətta poemadan yox, adi nəsrlə yazılmış həkayədən gedir) bildirdi.

Mən bu epizodu xatırlayanda indi özüm də təəccüb edirəm ki, həqiqətən, görəsən, bu bağlılıq nə idi, gənclik aludəçiliyi idi, hissə qapılma idi, sadəlövhlük idi, ya doğrudan da Kolduell istedadının nəticəsi idi?

Bu sualа dəqiq, birmənalı cavab verməyə indinin özündə də çətinlik çəkirəm və görünür, həmin sualın cavabında bu cəhətlərin hamısının payı var, ancaq mənim üçün əsas məsələ onlardır ki, Kolduellə bağlılıq mənim gənclik dövrü ədəbi həyatımın yaddan çıxmayacaq bir faktıdır.

O vaxtdan az qala elli il keçib və bu əlli ildə çox hadisələr baş verib, çox şeylər dəyişib və mən, təbii ki, bu gün o həkayənin heç birca cümləsini də əzbər deyə bilmərəm (hətta adı da xatirəmdə "Bomboş otaq" kimi yox, "Soyuq otaq" kimi qalmışdı), amma Kolduell həkayələrinin, konkret olaraq "Bomboş otaq" həkayəsinin, buradakı akvarelin, buradakı deyilməyənlərin ab-havası həmişəlik mənim yaddaşımа, hissiyyatımа hopub.

Yəqin elə buna görə də mən bu günlərdə o həkayəni, sonra da Kolduellin o biri həkayələrinin hamısını yenidən oxudum və deyim ki, hər halda, peşiman olmadım...

Və az qala əlli ildən sonra, özüm də gözləməden yazı masasının arxasına keçib, "Bomboş otaq" həkayəsini, necə deyərlər, birnəfəsə tərcümə etdim (təəssüf ki, orijinaldan yox, rus dilindən). Tərcümə etdim və birdən-birə məndə elə bir hissiyyat yarandı ki, elə bil, çoxdan idi gənclik illərimə kiçik bir borcum vardı və mən bu tərcümə ilə nəhayət ki, o borcu qaytardım. Əgər yanılmıramsa, bu həkayə Erskin Kolduellin Azərbaycan dilində çap olunan ilk əsəridir.

Orasını da deyim ki, həkayəni 1956-cı ildə Moskvada nəşr olunmuş və o uzaq (və gözəl!) 1960-cı ildə özümlə Kislovodska apardığım həmin kitabdan tərcümə etdim.

5 yanvar 2008.
Bakı.

ERSKİN KOLDUELL

Bomboş otaq

Mən onu ilk dəfə toylarından bir il, bir ildən bir az keçmiş gördüm. Dəfn mərasimi sona çatdı, hamı dağılışdı və biz evdə tək qaldıq. Mən bilmirdim ki, ona nə deyim, o isə səhərdən bir kəlmə də olsun, ağzını açmamışdı. O, bir ildən bir az artıq idi ki, Finliyə ərə getmişdi və onun hələ iyirmi yaşı tamam olmamışdı. Bütün vücudunda bir qadın məlahəti olsa da, o, hələ uşaq idi.

O, bütün axşamı pəncərənin qarşısındakı kresloda oturub, gecənin düşməsinə tamaşa edirdi. Gecə düşürdü, amma mən işığı yandırmadım və o, da eləcə dimməz-söyləməz oturmuşdu. Alaqaranlıq içində onun, elə bil ki, qara taxtadan yonulmuş hərəkətsiz profili görünürdü. O zaman mən başa düşdüm ki, hətta kədərin də gözəlliyi ola bilər.

Onun kədəri həqiqətən gözəl idi.

Finli mənim yeganə qardaşım və dünyada mənə yaxın olan yeganə adam idi.

O, Finlinin dul qadını idi.

Onun adı Tomazina idi, amma mən onu hələ heç vaxt adı ilə çağırmamışdım. Mən hələ ona alışmamışdım və bu qeyri-adi adda nəsə elə bir şey var idi ki, elə bil, yad adamların müdaxiləsinin qarşısını alırdı. Onu adı ilə çağırmağımın məqamı çatanda, mən artıq bilirdim ki, bu ad yanlız onun adıdır.

Mən bu evdə yad idim və biz hələ bir-birimizə bircə söz də deməmişdik. Finli mənim qardaşım, onun əri idi və Finlidən sonra mən bilmirdim ki, indi biz bir-birimiz üçün kimik. Ancaq mən burasını başa düşürdüm ki, bir halda ki, biz bu evdə yaşamalıyıq, hərəmiz öz yerimizi bilməliyik.

Zülmət gecə gəlirdi və gecənin bu qaranlığı bomboş, elə bil ki, nəhəng otağa yayılırdı. Və otağın alaqaranlığı gecənin zülmətinə qarq olduqca, onun profilinin cizgiləri də yavaş-yavaş o qaranlığa yayılırdı. Divarlar uzaqlaşırdı, otaq, elə bil, intəhasız bir məkana çevrilirdi və o zərif profil boş eva dolan zülmət içində belaca əriyib gedirdi.

O ki, orada, pəncərənin qarşısında oturmuşdu, hələ öz tənhalığını axıra kimi dərk etmirdi. Onun başı, çiyinləri qaranlığın içində itirdi, amma o heç özünü də hiss etmirdi.— Finli lap təzəcə vəfat etmişdi.

O, kreslodan qalxanda, mən də ayağa durdum və otaq boyu ona tərəf getdim. Mən ona yaxınlaşdım və demək olar ki, yanaşı dayandıq, amma bizim aramızda ki məsafə bu otaqdakı intahasız məkanın ölçüləri qədər idi. Mən istəyirdim ki, onu qucaqlayım və sevimli bir varlıq kimi ona təsginlik verim, amma o Finlinin dul qadını idi və mən bu divarsız, bomboş, sahilsiz bir zülmət içində batan nəhəng otaqda buna cürət etmədim. Çaxmaq daşından qopan qığılcım dözülməz bir işıq kimi kor edərdi, kiçicik şölə isə bizi yandırıb kül edərdi.

Mən bu eva girənə qədər heç zaman Tomazina adlı bir qız barədə düşünməmişdim, indi isə o Finlinin dul qadını idi.

Otaqda düzülmüş güllər də gecənin içində itmişdi, təkcə qızılgüllərin laçəkləri səssizcə xalçanın üstünə düşürdü.

Birdən o, qaranlıq içində üzünü mənə tərəf çevirərək, pıçıldadı:

– Siz onun dovşanlarının gecə yeməyini verdiz?

– Hə, – dedim.- Dovşanlara yedilər. Daha səhərə kimi onlara bir şey lazım deyil.

Onun çənə-çənə burulmuş saçları çiyninə tökülmüşdü. Saçları limon rəngində idi və bu saçlarla otağın qaranlığı, onun donunun matəmi arasında qəribə bir həmahənglik var idi. Onun görkəmi daha da kədərli görünürdü, çünki başının ətrafını qapqara qatı kölgələr bürümüşdü. Mən görünməz divarların zülmətina baxdıqca onun limon rəngli gur saçlarının azacıq örtdüyü və Finlinin sinəsinə sığınmış profilini görürdüm, Finlinin onu öpdüyünü və zərif simasını sığallədığını görürdüm. Onların vaxtsız sona çatmış sevgilərinin gücü və işartısı hər tərəfi bürümüş bu qaranlığı qarşısında addım-addım geri çəkilirdi. Və bu bomboş otağın qaranlığında mən ölüm əlacsızlığını bir daha qavradım və onun kədərinin dərinləyini hiss etdim. Xoşbəxtlikləri cəmi bir il davam etmiş sevgililər üçün ölüm əlacsızlığına inanmaq çətindir. Onun üçün isə bu, daha da çətin idi. Mən istəyirdim ki, nə fikirləşirəm, hiss edirəmsə, hamısını ona deyim, amma yox, mən lazım olan sözləri tapa bilməzdim. Onun sevgisi ölüm haqqında fikri hec yaxına da buraxmırdı və o məni başa düşmək istəməzdi.

Bu gecə belə başlayırdı.

Mən onu görmürdüm, amma hiss etdim ki, pəncərənin qarşısındakı kreslodan uzaqlaşır. Mən tanımadığım mebellərə toxuna-toxuna onun saçlarının limon atri sayəsində düzgün istiqamətdə getdim.

Sonra o, dayandı və mən başa düşdüm ki, yataq otağındayam. Mən qapının ağzında dayanmışdım və onun hərəkətlərini saçlarından gələn limon ətrinə görə müəyyən edirdim. O, küncdən küncə gəzişirdi və mən qapının ağzında dayanaraq, gözləyirdim ki, indicə danışacaq, mənimlə sabaha qədər sağollaşacaq. O istəyirdi ki, mən qalım, ya da mənim köməyimə heç bir ehtiyacı yox idi? – bir söz demədi.

Sükut içində onun tənha addımlarının səsi gəlirdi və kimsəsiz yataqdan isə lal və soyuq mesajlar idi. Mən hiss edirdim ki, o yatağa necə yaxınlaşır, barmaqları ilə yatağa necə toxunur və xalçanın üstü ilə yenə necə geri qayıdır.

O, pəncərənin qabağında dayandı, gecənin qapqara boşluğuna baxdı və mən gözləyirdim indicə deyəcək ki, qapını örtüm, gedim və onu tək buraxım.

O, otaqda dayanmışdı, mən qapının ağzında, dovşanlar isə düz pəncərənin aşağısında idi, amma bizim ətrafımızdakı boşluq evi ulduzsuz və aysız bir sükuta